# Mövzu 5: Müştərək biznes fəaliyyətinin təşkili, müasir vəziyyəti və tənzimlənmə metodları

## Plan:

**5.1. Müştərək biznesin sosial-iqtisadi mahiyyəti**

**5.2. Müştərək biznesin əsas formaları**

**5.3. Müştərək biznes fəaliyyətinin səmərəliliyi**

**5.4. Müştərək biznesin müasir vəziyyəti və perspektivləri**

**5.5. Müştərək biznes fəaliyyətinin tənzimlənməsi mexanizmi**

## 5.1. Müştərək biznesin sosial-iqtisadi mahiyyəti

Müasir dünya iqtisadiyyatında təsərrüfat həyatının beynəlmiləlləşməsi ölkələr arasında yalnız əmtəə və işçi qüvvəsinin deyil, həm də kapitalın hərəkətini gücləndirir. Bu da investisiya əməkdaşlığının müxtəlif formalarının inkişafına səbəb olur. Xarici investisiyanın cəlb edilməsinin səmərəli formalarından biri müştərək müəssisələrin yaradılmasıdır. Milli iqtisadiyyatın formalaşması və inkişafı beynəlxalq iqtisadi əməkdaşlığın, onun mühüm forması olan müştərək sahibkarlığın genişləndirilməsini obyektiv zəruriyyətə çevirir. Beynəlxalq təsərrüfat əlaqələrinin formalaşmasında, dünya iqtisadiyyatına sıx inteqrasiya olunmasında müstəsna rol oynayan müştərək sahibkarlıq fəaliyyəti özbaşına və idarə olunmaz proses kimi baş vermir, o əslində dövlətin iqtisadi siyasətinin önəmli istiqaməti kimi çıxış edir.

Vahid sistem halında formalaşan dünya iqtisadiyyatına qovuşmaq və onun uğurlarından bəhrələnmək üçün beynəlxalq iqtisadi əməkdaşlığın müxtəlif formalarından bacarıqla istifadə edilməlidir. Açıq iqtisadiyyat şəraitində müstəqil Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf strategiyası müəyyənləşdirilərkən təbii sərvətlərdən daha səmərəli istifadə olunmasını, bazar konyukturunun dəyişilməsini, xarici investisiyanın cəlb edilməsini və onun fəallığının artırılmasını nəzərə almaqla müştərək sahibkarlığın önəmli forması sayılan müştərək müəssisələrin yaradılmasına üstünlük verilməlidir. Müştərək müəssisənin mahiyyəti barədə lazımi

təsəvvürə malik olmaq üçün, hər şeydən öncə, müştərək müəssisə anlayışı açıqlamaq, dərk etmək lazım gəlir. Qərb ədəbiyyatlarında **müştərək müəssisə** beynəlxalq əməkdaşlığın çoxcəhətli formalara daxil olmaqla istehsal fəaliyyətinin təşkilinin xüsusi hüquqi forması kimi səciyyələndirilir və aşağıdakı əlamətləri göstərilir:

- müştərək müəssisə iki və daha çox tərəflərin aktivlərinin qismən bölüşdürülməsi, yaxud tərəfdaşlardan hər birinin kapital qoyması yolu ilə yaradılır;

- müştərək müəssisə istehsal, ticarət, maliyyə, elmi-tədqiqat fəaliyyəti ilə məşğul ola bilər;

- tərəfdaşlar arasında idarəetmə ilə bağlı məsuliyyət bölüşdürülür;

- kapital qoyuluşu uzunmüddətli olur;

- müştərək sahibkarlıq iştirakçıların fəaliyyətinin yalnız bir hissəsini əhatə edir;

- mənfəət və sahibkarlıq riski tərəfdaşlar arasında onlardan hər birinin kapital qoyuluşunda payına müvafiq olaraq bölüşdürülür.

Tarixi çox qədim olmasına baxmayaraq, indiyədək müştərək müəssisə məfhumunun konkret tərifi verilməyib. Bu zərurəti nəzərə alaraq müştərək müəssisə anlayışının aşağıdakı məzmunda istifadə olunmasını məqsədəmüvafiq sayıram: «**Müştərək müəssisə** – milli iqtisadiyyatın inkişafında investisiya qoyuluşunda iştirak edən yerli və xarici hüquqi şəxslər və ya fiziki şəxslər arasında bağlanmış saziş əsasında məhsulun istehsalı və satış, işlər görülməsi və xidmətlər göstərilməsi üçün yaradılan təsərrüfat subyektidir».

Müştərək müəssisələr nizamnamə kapitalı milli və xarici kapitalın iştirakı ilə formalaşan təsərrüfat subyektləridir.

Müştərək müəssisələrin xüsusiyyətlərinə iki və daha çox tərəfdaş arasında müqavilənin mövcudluğu, hər bir tərəfdaşın pay və iştirak formasının müəyyən olunması, sahibkar fəaliyyətindəki maraqların ümumiliyi, müştərək müəssisə üzərində nəzarəti təmin edən payın müəyyən edilməsi, hər bir tərəfdaşın iştirak payına uyğun olaraq məsuliyyətlərin məhdudlaşdırılması və müəssisənin fəaliyyəti

nəticəsində əldə edilən mənfəətin müəyyən hissəsinialmaq hüququ, fəaliyyət müddətinin (məhdud və ya qeyri-məhdud) müəyyən olunması aiddir.

Müştərək müəssisələr birgə kapital, bir idarəetmə, mənfəət və risklərin bölüşdürülməsi əsasında yaradılır. Müştərək müəssisələrin nizamnaməfondu tərəfdaşların vəsaitləri hesabına yaradılır və həm idarəetmə, həm dəmənfəət və riskin bölüşdürülməsi bu paya uyğun həyata keçirilir.

Təşkilati nöqteyi-nəzərdən müştərək müəssislərə, istər bir, istərsə də çox zavodlu (fabrikli) oluna bilər. Qeyd etmək lazımdır ki, beynəlxalq iqtisadi münasibətlərdə iştirak edən bir zavodlu müəssisələr qrupunda - kiçik, orta və irimüəssisələr vardır, çoxzavodlu müəssisələr qrupunda – trestlər, konsernlər və digər istehsal birlikləri iştirak edirlər. Heç təsadüfi deyildir ki, hər vəziyyətdə xarici investor yerli şəraitə və bazara uyğunlaşır və az kapital sərfi ilə risk edir. Müştərək müəssisələrin bu forması xarici investorları cəlb etməklə, mütərəqqi avadanlıq, qabaqcıl texnologiya ve idarəetmə təcrübəsi əldə etmək üçün xüsusi əhəmiyyət kəsb edir.

Müştərək müəssisənin sosial-iqtisadi mahiyyəti tərəfdaşların texnoloji və emosional əməkdaşlığı ilə müəyyən olunur. Əməkdaşlığın texnoloji tərəfi tərəfdaşların birgə sərmayə qoyuluşlarında öz əksini tapır. Xarici investor müştərək müəssisənin yaradılması üçün adətən yeni texnika və texnologiya, ixtisaslı kadrlar, uzunmüddətli kreditlər cəlb edir, milli investor isə torpaq sahəsi verir, işçi qüvvəsi, tikinti materialları və xammalı cəlb edir. Əməkdaşlığın emosional tərəfi isə müəssisənin səmərəli fəaliyyəti üçün tərəfdaşların səylərini birləşdirməsində öz əksini tapır.

Müştərək müəssisəni yaradan tərəflərin məqsədləri **üç əsas kateqoriyaya** bölünür: zəruri istehsal resursların əldə olunması, bazar motivləri, riskin bölüşdürülməsi.

Tərəfdaşların öz istehsal və ya bazar potensialını səmərəli reallaşdırmaq üçün bu və ya digər resurs növünə çatışmamazlığı çox vaxt müştərək müəssisənin yaradılması üçün əsas olur. Bu resurslara maliyyə vəsaitləri, istehsal gücləri,

xammal və materiallar, texnologiya, patentlər, idarəetməkadrları, informasiya, nou-hau və s. aid ola bilər.

Müştərək müəssisənin yaradılması xarici investora yerli tərəfdaşların köməyilə ölkənin iqtisadi və siyasi vəziyyəti haqqında informasiya almaq, dövlət orqanları və yerli istehsalçılarla əlaqə yaratmaq, yerli xammaldan, maliyyə mənbələrindən, işçi qüvvəsindən, yerli tərəfdaşın istehsal güclə-rindən istifadə etmək kimi üstünlüklər verir. Yerli tərəfdaşlar isə əlavə maliyyə resursları, yeni texnika və texnologiya, idarəetmə təcrübəsi cəlb etməklə istehsal olunan məhsulun rəqabətqabiliyyətini artırmaq imkanına malik olur.

Beləliklə, müştərək müəssisənin üstünlüyü onun yaradılması üçün bir-birini tamamlayan və qarşılıqlı səmərəli iqtisadi resursların cəlb edilməsi iləmüəyyən olunur.

Müştərək müəssisə yerli bazara daxil olan vasitəsi kimi xarici inves-tora daha geniş informasiya bazası, əlaqə şəbəkəsi əldə etməyə və daxili bazarı qiymətləndirməyə, yerli istehlakçıların zövq və meyilləri haqqında məlumat toplamağa, istehlakçılara xidmət göstərməyə imkan verir. Digər tərəfdən xarici investor yetkin texnika və texnologiyanı və məhsul isteh-salını inkişaf etməkdə olan ölkələrə keçirməklə kapitalın dövriyyə müddətini artırmış olur. Müştərək müəssisənin yaradılması milli investorun xarici təchizatçı və istehlakçılarla təsərrüfat əlaqələri yaratmasına, yerli bazarı daha tez mənimsəməsinə xarici investorun satışını istifadə edərək xarici bazarlara çıxmasına, xarici marketinq təcrübəsinə yiyələnməsinə müsbət təsir göstərir.

Müştərək müəssisələrin yaradılması xarici yerli şərait və bazar haqqında yerli tərəfdaşın biliklərindən istifadə edərək həmin ölkə bazarında az xərclə möhkəmlənməyə imkan verir. Bu özünü alıcılarla, xammal və resurs təminatı, işçi qüvvəsindən istifadə və s. ilə əlaqədar əməkdaşlıq nəticəsində istehsal və tədavül xərclərinin azalmasında, kapitalın dövriyyə sürətinin artmasında göstərir. Milli tərəfdaşların müştərək müəssisədə iştirakı xarici tərəfdaşların yerli bazarın qeyri sabitliyi və onunla tanışlıq dərəcəsinin az olması ilə əlaqədar təsərrüfat risklərini

xeyli azaldır. Ümumi kapital qo-yuluşlarının bölüşdürülməsi nəticəsində bununla bağlı risklər azalır.

Beləliklə, yaradılma motivlərindən asılı olmayaraq müştərək müəssisətərəfdaşların ayrı-ayrılıqda imkanı xaricində olan işgüzar və iqtisadi məqsədlərin birgə fəaliyyətlə əldə edilməsi vasitəsidir.

Müştərək müəssisə yeni istehsala başlamaq üçün ilkin şəraitini xeyli yaxşılaşdırsa da, təsisçilərin siyasi, iqtisadi və milli maraqları onların yaradılmasında və fəaliyyətində bəzən mürəkkəb və ziddiyyətli münasibətlərin əmələ gəlməsinə gətirib çıxarır. Belə münasibətlər, ilk növbədə, tərəfdaş-ların məqsədlərindən asılıdır. Onların yaradılması və fəaliyyəti prosesindətərəfdaşların rəqabət aparan məqsədləri mövcud olur. Bunun nəticəsində xarici investor mütərəqqi texnika və texnologiyanın, idarəetmə və marketinq təcrübəsinin verilməsini minimumlaşdırmağa, yerli tərəfdaşlar isə maksi-mumlaşdırmağa cəhd edirlər ki, bu da müştərək müəssisələrin səmərəli fəaliyyətinə mane olur. Mühüm məsələlərdən biri məhsulun reallaşdırılması ilə əlaqədardır. Əgər xarici investorun əsas məqsədi yerli bazarda möhkəmlənməkdirsə, milli tərəfdaş isə məhsul ixracına çalışarsa, bu cür mənafelərin toqquşması müəssisənin fəaliyyətinə mənfi təsir göstərir. Digər ziddiyyətlər istehsalın genişləndirilməsinə zəruriyyət yarandıqda əlavə kapital qoyuluşlarının həyata keçirilməsi ilə əlaqədardır. Bir tərəfdən, müştərək müəssisənin iqtisadi səmərəliliyini artırmaq üçün əlavə kapital qoyuluşlarına zərurət yaranır, digər tərəfdən, onun sərbəst əmtəə istehsalçısına çevrilməsi tərəfdaşlar tərəfindən əlavə kapital qoyuluşlarının həyata keçirilməsini məhdudlaşdırır. Beləliklə, tərəfdaşların məqsədlərindəki ziddiyyətin olmaması müştərək müəssisənin yaradılması və səmərəli fəaliyyəti üçün əsas şərtdir.

Müştərək müəssisələrin milli iqtisadiyyatın səmərəliliyi nöqteyi-nəzə-rindən yaradılması onun ölkənin iqtisadi sisteminə daha səmərəli daxil olması baxımından qiymətləndirilməlidir. Bu məqsədə o vaxt çatmaq olar ki, müştərək müəssisələrin formalaşması və inkişafı milli iqtisadiyyatın vəölkədə sahibkarlığın inkişaf strategiyası ilə üzvi surətdə əlaqələndirilir, həmçinin müştərək müəssisələrin inkişafı üçün cəlb edilmiş xarici investisiyalar dərin təhlil edilir.

## 5.2. Müştərək biznesin əsas formaları

Azərbaycan iqtisadiyyatının idarə edilməsində köklü islahatlar, bazar münasibətlərinə keçid, iqtisadiyyatın açıq xarakter alması iqtisadi inkişafın daxili amilləri ilə yanaşı, xarici amillərin də rolunu artırır. Belə şəraitdəxarici amillər, nəinki birbaşa xarici iqtisadi fəaliyyətlə əlaqədar müəssisələrə, həm də onunla əlaqədar olmayan müəssisələrə də öz təsirini göstərir. Daxili və xarici amillərin səmərəli nisbətdə ölkənin müqayisəli üstünlüklə-rinə əsaslanaraq iqtisadiyyatın səmərəliliyinin artırılması və dünya bazarın-da öz layiqli yerini tutması ölkənin qarşısında duran mühüm vəzifələrindəndir.

Kiçik dövlətlər beynəlxalq əmək bölgüsünə daha aktiv qoşulması vəiqtisadiyyatın açıq xarakteri ilə fərqlənirlər. Ölkənin əhalisi, ərazisi vəümumi daxili məhsulunun həcmi nə qədər azdırsa, ölkə iqtisadiyyatına xarici iqtisadi amillər bir o qədər çox təsir göstərir. Beynəlxalq əmək bölgüsü bu ölkələrdə ictimai əmək bölgüsünün, sənayenin sahə strukturunun formalaşmasında böyük rol oynayır. İngilis iqtisadçısı K.Leyton düzgün olaraq qeyd edir ki, kiçik dövlətlər və onun kompaniyaları öz istehsallarının ixtisaslaşdırılmasına və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadəedilməsinə aktiv cəhdlər etdikdə daha böyük müvəffəqiyyətlər əldə edirlər. Bu ölkələrin iqtisadi inkişafı onların xarici iqtisadi əlaqələrdə iştirakından əhəmiyyətli dərəcədə asılıdır. Buna görə də, Azərbaycan Respublikası qarşısında məqsədəuyğun və təcili olaraq iqtisadiyyatda struktur dəyişikliklərin aparılması, dünya bazarı tələblərinə istiqamətlənərək istehsal olunan məhsulun rəqabət qabiliyyətinin artırılması vəzifəsi durur. Belə şəraitdə əsas məsələlərdən biri də iqtisadiyyatın yeni keyfiyyət səviyyəsinə keçirilməsidir.

Daxili bazarın həcminə ictimai əmək bölgüsünün inkişaf səviyyəsi ciddi təsir göstərir. İctimai əmək bölgüsü dərinləşdikcə ixtisaslaşma nəticəsində daxili bazarın həcmi artır. Lakin qeyd olunduğu kimi, kiçik dövlətlərdə ictimai əmək bölgüsü beynəlxalq əmək bölgüsü ilə əlaqədardır. Bu da ölkənin xarici ticarətindən asılı bir prosesdir. Məhz xarici ticarətin genişlənməsi ölkələrin müqayisəli üstünlüklərindən səmərəli istifadə etməyəimkan verir. Yuxarıda göstərilən əlaqə ölkənin iqtisadi

inkişaf səviyyəsindən asılıdır. Ölkənin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, ictimai əmək bölgüsü bir o qədər dərindir və ölkə beynəlxalq əmək bölgüsündə səmərəli iştirak edə bilər. İqtisadi inkişafın aşağı səviyyəsində bu proses həmin ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərir.

Bazar iqtisadiyyatına keçid şəraitində yeni iqtisadi münasibətlərin dərinləşməsi və bu münasibətlərin daşıyıcılarının formalaşması müəyyən vaxt tələb edir. Belə şəraitdə fəaliyyət göstərə bilən, bazar təcrübəsinə vəbiliklərinə malik kadrların, sahibkarların formalaşması zəruri məsələlərdən biridir. Yeni investisiya ilə əlaqədar riski öz üzərinə götürməyi bacaran rəhbərlərin və sahibkar təbəqəsinin mövcudluğu iqtisadi inkişafda mühüm rol oynayır. Buna görə də sahibkar təbəqəsinin zəif formalaşması ölkənin iqtisadi inkişafını ləngidən amillərdən biridir.

Beləliklə, xarici investisiyanın cəlb olunmasını, o cümlədən müştərək biznesin yaradılmasını zəruri edən amilləri, Amerika iqtisadçısı S.Kuznetsin qeyd etdiyi kimi, üç əsas qrupa bölmək olar:

1. Maliyyə vəsaiti kimi ümumi milli məhsulda qənaətin həcminin azlığı. Belə ki, qənaətə meyil o qədər azdır ki, iqtisadi inkişaf üçün zəruri olan fondların formalaşmasını təmin etmir.

2. Real mənada qənaət edilmiş vəsaitlərin çatışmamazlığı. Belə hal, əhalinin istehlak şeyləri istehsalında məşğul olan resursların müəyyən hissəsinin məhsuldar investisiyaların həyata keçirilməsi üçün istifadə etmək meyilinin azlığı ilə əlaqədardır.

3. Xarici resursların əldə olunması üçün xarici valyutanın çatışmaması.Müştərək biznesin inkişafına təsir göstərən əsas amillərdən biri respublikada əlverişli iqlim mühitinin olması və mineral-xammal resurslarının mövcudluğudur. Respublika neft, qaz, alüminium, tikinti sənayesi üçün xammal və s. ilə zəngindir. Belə ki, Xəzər dənizinin Azərbaycan sektorunda hazırda 3,5 mlrd. ton neft, 200 mln. dəmir filizi, 180 mln. alunit, 400 min tona yaxın mis ehtiyatı vardır. Xarici investisiyanın ölkəyə cəlolunmasından əsas məqsədlər aşağıdakılardan ibarətdir:

– ölkədə istehsal olunan rəqabətqabiliyyətinin, istehsalın texniki-iqtisadi səviyyəsinin artırılması;

– ölkədə struktur dəyişikliklərin aparılması və mövcud iqtisadi potensialı reallaşdırmaq üçün yeni müəssisələrin yaradılması;

– yeni ixracyönlü və idxalı əvəz edən istehsalların yaradılması;

– ölkədə rəqabətin inkişaf etdirilməsi üçün yeni təsərrüfat subyektlərinin yaradılması;

– az inkişaf etmiş ərazilərin inkişaf etdirilməsi;

– daxili bazarın tələbatını və ölkənin istehsal potensialını artırmaq üçün yeni faydalı qazıntı yataqlarının mənimsənilməsi;

– konsaltinq və marketinq üzrə kadrların hazırlanması sahəsində xarici təcrübədən istifadə.

Xarici investisiyanın cəlb olunması, o cümlədən müştərək biznesin ya-radılması ilk növbədə istehsal resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinə şərait yaradır. Nəticədə, müəyyən həcmdə istehsal amillərinin məşğulluğu artır, milli gəlir təbii resurs istehsalçıları, işçi qüvvəsi və s. tərəfdənyaradılan əlavə dəyər hesabına artır.

Xarici investisiyanın həcmi artdıqca ölkəyə gətirilən yeni texnika vətexnologiyanın, mütərəqqi idarəetmə və marketinq üsullarının yayılması nəticəsində ölkənin texnoloji inkişafının sürətlənməsi baş verir. Xarici investisiyanın cəlb olunması mütərəqqi texnika və texnologiyada öz əksin tapan, "maddiləşmiş əmək bacarıqları"nın və bunu tamamlayan təşkilati-tex-noloji və mikroiqtisadi istehsal münasibətlərinin ölkəyə daxil olmasına, yəni mahiyyətcə, təsərrüfat mikrosisteminin kapital ixrac edən ölkədən idxal edən ölkəyə keçməsinə imkan verir.

Digər tərəfdən, xarici iqtisadi əlaqələrin inkişafı nəticəsində istehsal modellərinin mənimsənilməsi baş verir. Bu, iqtisadi ədəbiyyatda "nümayişkarlıq effekti" adlandırılır. "Nümayişkarlıq effekti" iki istiqamətdə təsir göstərir: birincisi,

o ayrı ayrı ölkələrdə istehsal strukturunun unifikasiyası prosesinin sürətlənməsi (yeni sahələrin inkişafı yolu ilə,həmçinin yeni əmtəəavadanlıqlarının idxalı hesabına) əlverişli şərait yaradır, ikincisi, müxtəlif ölkələr arasındakı əlaqələrin intensivləşməyə meyili nəticəsində genişmənada istehlak modellərinin unifikasiyası baş verir. Xarici investisiyanın cəlb olunması istehsal olunan məhsulun dünya bazarlarına çıxmasına öl-kənin valyuta gəlirlərinin artmasına müsbət təsir göstərir.

Bununla belə təcrübə göstərir ki, Azərbaycansənayesinin xarici inves-tisiya mənimsəməsi qabiliyyətini məhdudlaşdıran bir çox obyektiv və subyektiv amillər mövcuddur. Hər şeydən əvvəl, ölkənin uzun müddət beynəl-xalq texnoloji mübadilədən kənarda qalması bu resursların mənimsənilməsinə ciddi təsir göstərir. Rəqabətqabiliyyətli məhsul istehsalı müəssisənin lazımi həcmdə yüksək keyfiyyətli xammal, material və dəstləşdirici məmulatlarla təmin olunmasından çox asılıdır. Məhz bu amil bəzi ölkələrdə müştərək biznes obyektlərinin çoxunun istehsal fəaliyyətinin anklav xarakter almasına və xarici investorların müəssisələrinə istiqamətlənməsinə gətirib çıxarır. Onlar yaradılan obyekt ətrafında investisiya fəallığına gətirib çıxarmır və uyğun olaraq əlaqədar istehsalların texnoloji səviyyəsinin art-masına stimullaşdırıcı təsir göstərmir. Bu cür müəssisələrdə məhsulun tərkibində yaradılan əlavə dəyər payı aşağı olur.

Beləliklə. xarici investisiyanın, o cümlədən müştərək sahibkarların üzərinə qoyulan əsas vəzifə onların“iqtisadi artımın katalizatoru və milli iqtisadiyyatın dünya iqtisadi sisteminə qoşulması vasitəsinə çevrilməsidir”.

### 5.3. Müştərək biznes fəaliyyətinin səmərəliliyi

Müştərək biznesin yaradılması və fəaliyyətinin iqtisadi səmərəliliyinə makroiqtisadi və mikroiqtisadi səviyyədə baxılmalıdır. Qeyd edildiyi kimi, müştərək biznesin yaradılmasında ictimai mənafe və tərəfdaşların oxşar vəfərqli məqsədləri rol oynayır və bunlar birlikdə ziddiyyətli sistem yaradırlar. Bu baxımdan müştərək biznes fəaliyyətinin əsas məqsədi onun təsisçilərinin maddi rifahının yüksəldilməsindən ibarətdir və hər bir təsisçi də öz mənafelərini tam reallaşdırmağa çalışır. Eyni zamanda, dövlətin əsas məqsədi tənzimləmə vasitələrindən istifadə

edərək ölkədə iqtisadi inkişafa nail olmaqdan və əhalinin maddi rifahının yüksəldilməsindən ibarətdir. Müştrək biznesin yaradılmasının iqtisadi səmərəliliyi sözügedən məqsədlərin vəhdətindən bilavasitə asılıdır.

Müştərək biznesin yaradılmasının makroiqtisadi səmərəliliyinin meyarı bu prosesdəki xalq təsərrüfatı məqsədlərindən asılıdır. Ayrı-ayrı dövrdən asılı olaraq bu məqsədlər dəyişə bilər. Məsələn, müştərək biznesin yaradılması yolu ilə xarici investisiyasının cəlb olunması sənaye istehsalının sahə quruluşunun təkmilləşməsi, onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi, mütərəqqi və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunması və s. məqsədi daşıya bilər. Bu baxımdan müştərək biznesin makroiqtisadi səmərəliliyinin hesablanmasının praktiki əhəmiyyəti xalq təsərrüfatı məqsədlərinin həyata keçirilməsinə onların təsir ölçüsünün müəyyən olunması əsasında kapitalın qəbulu sisteminin formalaşdırılmasıdır.Müştərək biznesin yaradılması və fəaliyyətinin makroiqtisadi səmərəliliyini iki formada müəyyən etmək olar. Birinci formada xalq təsərrüfatına istehsalçı mövqeyindən baxılaraq iqtisadi səmərəlilik müəyyən edilir. Müştərək biznesin yaradılması hesabına ölkə iqtisadiyyatına mütərəqqi texnika və texnologiya, idarəetmə təcrübəsi cəlb etməklə istehsal xərclərinin azaldılması və məhsulun keyfiyyətinin yüksəldilməsi baş verir. Bu formada özünü biznesin iqtisadi səmərəliliyində konkretləşdirsə də, daha geniş məna daşıyır. Yəni məhdud iqtisadi resursların səmərəli istifadəsi və bunun nəticəsində də, xammal və materialların emallıq səviyyəsinin artırılması ölkənin iqtisadi imkanlarının artması baş verir. Kiçik dövlətlər xarici iqtisadi əlaqələrdən daha çox asılıdır. Bu asılılıq xalq təsərrüfatının istehsalçı kimi səmərəliliyinin yüksək olmasını tələb edir. Müasir dövrdə əlavə gəliri ilk növbədə istehsal xərclərinin azaldılması hesabına əldə etmək mümkündür. Xalq təsərrüfatının istehsalçı kimi iqtisadi səmərəliliyi nə qədər aşağıdırsa, ölkənin xarici ticarətində “ticarət şəraiti” bir o qədər pisdir. Yəni məhsul vahidinə sərf olunan iqtisadi resurslar digər ölkələrə nisbətən artıqdır. Qeyd etmək lazımdır ki, istehsal növlərindən asılı olaraq xalq təsərrüfatına is-tehsalçı kimi baxılması əsasında makroiqtisadi səmərəliliyin hesablanması dövlətin iqtisadiyyatı istər iqtisadi, istərsə də inzibati yolla tənzimləməsində mühüm əhəmiyyətə malikdir.

Hazırda ölkənin mövcud iqtisadi imkanlarından tam istifadə edib maksimum əlavə gəlir yaratmaq geniş mənada ölkə iqtisadiyyatının səmərəliliyini göstərir. Lakin bu məşğulluğu məhz sərf olunan xərclər hesabına daha çox səmərə əldə etməklə, istehsal olunan məhsulların həm qiymət, həm də keyfiyyət baxımından rəqabətqabiliyyətlərinin artırılması hesabına təmin etmək mümkündür.

Müştərək biznesin milli iqtisadiyyatın inkişafına təsirini səciyyələndirən göstəricilərindən biri də istehsal olunan məhsulun dəyərində milli tərəfdaşların payı – istehsal olunan məhsulun "millilik səviyyəsi" hesab edilir. Bu göstəricilərin artması ölkədə daxili əmək bölgüsünün dərinləşdirilməsini və məşğulluğun səviyyəsinin yüksəlməsini əks etdirir, müştərək biznesin xalq təsərrüfatı çərçivəsində "muxtariyyət" səviyyəsini göstərir.

Beləliklə, müştərək biznesin yaradılmasının makroiqtisadi səmərəliliyi onların xalq təsərrüfatı məqsədlərinin həyata keçirilməsinə təsir ölçüsüdür.

Müştərək biznesin yaradılmasının iqtisadi səmərəliliyini qiymətləndirərkən ayrı-ayrı tərəfdaşların iqtisadi səmərəsini də nəzərə almaq lazımdır. Birbaşa iqtisadi səmərə müştərək biznes fəaliyyətinin iqtisadi səmərəliliyi ilə əlaqədardırsa, dolayı səmərə istehsal miqyasının və satış bazarının genişlənməsi, yetkin texnika və texnologiyanın, idarəetmə metodlarının tətbiqi vəümumiyyətlə, yetkin məhsul istehsalı və satışı məhsulun həyat tsiklinin uzadılması ilə əlaqədardır. Çünki həmin məhsulun inkişaf etmiş ölkələrdəköhnəlmiş olsa da, inkişaf etməkdə olan ölkələrin bazarları üçün təzə ola bilər. Bu baxımdan müştərək biznesin istehsal etdiyi məhsulun keyfiyyət səviyyəsinin təhlili mühüm əhəmiyyətə malikdir.Müştərək biznesin yaradılması və fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodikası aşağıdakı məsələlərin həllinə imkan verir:

– müştərək biznesin yaradılması və fəaliyyətinin makroiqtisadi səmərəliliyinin müəyyən olunmasına;

– müştərək biznesdə milli tərəfdaşın iştirakının iqtisadi səmərəliliyinin müəyyən olunmasına;

− müştərək biznesdə xarici tərəfdaşın iştirakının iqtisadi səmərəliliyinin qiymətləndirilməsinə;

− müştərək biznesin yaradılması üçün layihələrin mümkün variantlarından ən optimalının seçilməsinə.

Beləliklə, metodika müasir dövrdə bazar iqtisadiyyatının tələblərinəuyğun müştərək biznesin yaradılması və fəaliyyətinin iqtisadi səmərəlili-yinin qiymətləndirilməsinə imkan verir və iqtisadiyyatda baş verən köklü dəyişiklikləri özündə əks etdirir.

## 5.4. Müştərək biznesin müasir vəziyyəti və perspektivləri

Bazar münasibətlərinə keçid respublikada müxtəlif sahibkarlıq formalarının inkişafına geniş imkan açmışdır. Xüsusilə ölkədə iqtisadi inkişafın daxili imkanlar hesabına təmin edilməsi məhdud olduğundan, xarici investisiyanın cəlb edilməsi mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.

Müştərək müəssisələrin səmərəli inkişafı onların səmərəli tənzimlənmə mexanizminin mövcud olduğu şəraitdə mümkündür. Müştərək müəssisələrin inkişafının tənzimləmə mexanizminə aşağıdakılar aiddir:

1. Müştərək müəssisələrin inkişafının öncül istiqamətlərinin müəyyən edilməsi, onların yaradılması, fəaliyyət istiqamətlərinin əlaqələndirilməsinə aid tədbirlər və dövlət qeydiyyatı;

2. Xarici investorlarla hesablaşma mexanizmi (valyuta tənzimlənməsi);

3. Xarici investisiyanın təminat sistemi; Müştərək müəssisələrin inkişafında vergi dərəcəsi, rentabellik səviyyəsi və valyuta tənzimlənməsi əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikasında müştərək müəssisənin iştirakçısı olan xarici investorun əldə etdiyi dividentə görə 15 faiz vergi dərəcəsi təyinedilmişdir. Ayrı-ayrı dövlətlərlə bağlanmış müqavilələrə əsasən ikiqat verginin aradan qaldırılması

mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Türkiyə, ABŞ, Böyük Britaniya və s. ölkələrlə ikiqat verginin aradan qaldırılması haqqında bağladığı müqavilələrə əsasən, həmin ölkələrin investorları öz ölkələrində Azərbaycanda götürdüyü gəlirlərə görə tutulan vergilərin həcmindən Azərbaycanda alınan vergilər çıxılır və Azərbaycan tərəfindən bu gəlirlərə görə vergi dərəcəsini aşağı salması nəzərdə tutulur. Müştərək müəssisələrin iştirakçısı olan xarici investorun əldə etdiyi divident, faiz və digər gəlirlərin xaricə köçürülməsində heç bir məhdudiyyət yoxdur. Xarici investorlar təsdiqləyici sənədləri təqdim etmək şərtiilə öz vəsaitlərini sərbəst şəkildə deportasiya edə bilər və milli valyutada əldəetdiyi gəlirləri xarici valyutaya edə bilər. Müştərək müəssisələrin yaradılması və fəaliyyəti istiqamətlərinin əlaqələndirilməsinə aid tədbirlər müxtəlif metodlar vasitəsilə həyata keçirilir. Bunlara inzibati və iqtisadi ayrı istiqamətlərdə müştərək müəssisələrin inkişafının məhdudlaşdırılmasına yönəldilir. Bunlara müştərək müəssisələrin dövlət qeydiyyatı, təsərrüfatfəaliyyəti ilə məşğul olmaq üçün lisenziyanın verilməsi və s. aiddir. İqtisadi metodlar isə müştərək müəssisələrin inkişafına dolayı təsir vasitələridir və ayrı-ayrı istiqamətlərdə gəlirliliyin azaldılması və ya artırılması yolu iləonların fəaliyyəti tənzimlənir. Əgər inzibati metodlar əsasən inkişafın məhdudlaşdırılmasına yönəldilə bilərsə, iqtisadi metodlar həm inkişafın məhdudlaşdırılmasına, həm də stimullaşdırılmasına yönəldilə bilər.

Hal-hazırda Azərbaycan Respublikasında bəzi sənaye məhsulları istisna olmaqla, idxal olunan məhsullara 15 faiz idxal rüsumu müəyyən olunmuşdur. Gömrük siyasəti Azərbaycanda istehsal olunmayan bəzi hazır məhsul, xammal və materialların idxalını stimullaşdırmaqla yanaşı, yerli xammal və materiallardan səmərəli istifadəni və kənd təsərrüfatı istehsalının inkişafını stimullaşdırmağa yönəldilib. Müştərək müəssisələrin inkişafının stimullaşdırılması beş istiqamətdəhəyata keçirilə bilər:

- sənaye müəssisələrinin yaradılması və inkişafına;
- sənaye istehsalının ərazi quruluşunun təkmilləşdirilməsinə;
- sənaye məhsulunun ixracının genişləndirilməsinə;

- mənfəətin reinvestisiyası, yəni yığım prosesinin stimullaşdırılmasına;

- sənayenin sahə quruluşunun təkmilləşdirilməsinə.

Xarici iqtisadi əlaqələrin genişləndirilməsi və bu əsasda milli iqti-sadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiya olunması müstəqil Azərbaycan Respublikasının iqtisadi siyasətinin strateji istiqamətlərindən biridir. Respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi həm də ona görə əhəmiyyətlidir ki, ölkə iqtisadiyyatının xarici dövlətlərin və beynəlxalq təşkilatların üzünə açmadan və onlarla qarşılıqlı faydalı əlaqələr qurmadan sivilizasiyalı bazar iqtisadiyyatının sirlərini öyrənmək, müasir texnika və mütərəqqi texnologiya əldə etmək yolu ilə sosial-iqtisadi tərəqqiyə nail olmaq qeyri-mümkündür. Azərbaycan dövlət müstəqilliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafın təmin edilməsi, azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemin formalaşdırılması probleminin həlli mövcud iqtisadi potensiala və daxili tələbata uyğun olaraq iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmasını, mükəmməl iqtisadi təhlükəsizlik sisteminin yaradılmasını nəzərdə tutur.

Şübhəsiz, müştərək sahibkarlığın inkişafı, milli iqtisadiyyatın forma-laşması və dayanıqlı inkişafına, əhalinin məşğulluq probleminin çözülməsinə, daxili istehlak bazarının yerli istehsal hesabına zənginləşməsinə, Azəbaycanın dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsinə əhəmiyyətli kömək edəcəkdir.

### 5.5. Müştərək biznes fəaliyyətinin tənzimlənməsi mexanizmi

Müştərək biznes fəaliyyətinin inkişaf etdirilməsində mühüm məsələlərdən biri xarici investisiyanın cəlb olunması sahəsində öncül istiqamətlərin müəyyən edilməsidir. Bu sahədə öncül istiqamətləri müəyyən edərkən meyarlar sistemini ayırmaq lazımdır ki, bunlara aşağıdakılar aiddir:

– sahə və istehsal növü;

– istifadə edilən texnika və texnologiyanın səviyyəsi;

– istehsalın ərazi üzrə yerləşməsi və rayonun iqtisadiyyatına təsir xarakteri;

– istehsalın ixrac dairəsi;

– kapital qoyuluşlarının həcmi.

Ölkə sənayesinin strukturunda öncül sahələrin müəyyən olunması mürəkkəb və ziddiyyətli bir prosesdir. Uzun müddət ərzində verilən dövrə görəən səmərəli qərarın axtarışında üstünlük bir sahədən digər sahəyə verilir.Adətən ilkin mərhələdə iqtisadiyyatın ixtisaslaşması onun təbii üstünlükləri (təbii sərvəti, əlverişli coğrafi mövqeyi və s.) ilə əlaqədardır. Bu cür üstünlüklərin mövcudluğu sənayenin inkişafına əlverişli şərait yaradır. Lakin ictimai tələbatların və istehsaltexnologiyasının sürətli inkişafı və dəyişməsi bu üstünlüklərin uzunmüddətli təsiriniməhdudlaşdırır. Buna görə də bir ölkənin təsərrüfat nailiyyəti onun beynəlxalq əmək bölgüsündə daha səmərəli mövqe tutmasından əhəmiyyətli dərəcədə asılıdır.

Sənayedə müştərək biznes fəaliyyətinin inkişaf istiqamətlərini müəyyən edərək perspektiv inkişaf istiqamətlərini əsas götürmək zəruridir. Ölkədə iqtisadi artımı təmin edən və yüksək səmərəli istehsal növlərinin inkişaf etdirilməsi müştərək biznes fəaliyyətinin inkişafı sahəsindəki siyasətin əsas istiqamətlərindən olmalıdır. Bunlar əsasən aşağıdakı 4 istiqamətdə həyata keçirilməlidir:

1. Bir işçiyə düşən əlavə gəlirin yüksək olduğu sahələrin seçilməsi və bu istiqamətdə müştərək biznes fəaliyyətinin inkişafının stimullaşdırılması;

2. Çoxsahəli təyinata malik olan və sənayenin digər sahələrinin inkişafı üçün böyük əhəmiyyətə malik olan baza sahələrinin inkişaf etdirilməsi;

3. Potensial rəqabətqabiliyyətli sahələrin inkişaf etdirilməsi;

4. Xarici ölkələrdə mövcud olan tələblə və baş verən dəyişikliklərlə stimullaşdırılan sahələrin müəyyən edilməsi və inkişaf etdirilməsi;

80-cı ilin ortalarında Azərbaycan Respublikası sənaye məhsullarına tələbatının 65 faizini öz hesabına ödəyirdi. Sənayenin aparıcı sahələrinin resurslarının formalaşmasında uyğun material resurslarının idxalı xüsusilə vacib əhəmiyyət kəsb

edir. Dövlətin investisiya fəaliyyəti istiqamətlərindən biri yerli xammal və materiallardan tam istifadəyə imkan verən son istehlak məhsullarının istehsalının təmin edilməsi ola bilər. Belə istehsal növlərinin inkişafı əlaqədar sahələrdə müştərək biznes fəaliyyətinin inkişafını stimullaşdırır. Məsələn, toxuculuq sənayesində keyfiyyətli xammalın olmaması bu sahədə son istehlak məhsullarının istehsalının inkişafına ciddi mənfi təsir göstərir. Belə hal digər sahələrdə də mövcuddur. Hökumət bu sahələrin inkişaf proqramını hazırlamalı və onların yenidən qurulması üçün istər daxili, istərsə də xarici mənbələri səfərbər etməlidir. Beləliklə, mövcud istehsal resurslarının məşğulluğunu təmin etmək məqsədilə həyata keçirilən beləlayihələrdə müştərək biznes fəaliyyətinin yaradılması önəmli yer tutmalıdır.

Mövcud şəraitdə valyuta daxil olmasına imkan verən ixrac sahələrinin və valyuta qənaətə imkan verən idxalı əvəz edən istehsal növlərinin inkişaf etdirilməsi mümkün əhəmiyyət kəsb edir. Belə ki, hazırda daxili bazarın 70 faizi, o cümlədən ərzaqmalları üzrə 90 faizi idxal hesabına formalaşır. Fikrimizcə, düzgün qeyd olunur ki, ölkə böyük həcmdə sərbəst resurslara malik olduqda, bu resurslardan səmərəli istifadə yolları mövcud olmadıqda belonların təsərrüfat dövriyyəsinə cəlb edilməsi məqsədi ilə idxal məhdudlaşdırıla bilər.

Hazırda sənaye istehsalının ərazi quruluşunun təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bakı şəhərinin sənaye məhsulunun ərazi quruluşunda xüsusi çəkisi 70 faiz təşkil edir. Həyata keçirilən kapital qoyuluşlarının ərazi quruluşu Bakı şəhərinin sənaye məhsulu həcmində xüsusi çəkisinin daha da artmasına gətirib çıxaracaqdır. Təcrübə göstərir ki, bazar qüvvələri sənayenin ərazi quruluşunda çıxarır. Xüsusilə müştərək biznes fəaliyyəti əsasən yüksək inkişaf etmiş rayonlarda yaradılır. Buna görə də sənaye istehsalının ərazi quruluşunun tək-milləşməsinə və rayonların mövcud resurslarından səmərəli istifadə olunmasına nəzərə çarpacaq təsir göstərən müştərək biznes fəaliyyətinin inkişafının dəstəklənməsi zəruridir.

Sənaye istehsalının texniki-iqtisadi səviyyəsinin yüksəldilməsindəmüştərək biznes fəaliyyətinin istifadə etdiyi texnika və texnologiyanın səviyyəsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda xarici texnologiyanın cəlb olunmasına dair

əsasnamənin qəbul olunması və elmi-texniki tərəqqinin müasir nailiyyətlərinin müştərək müəssisələrdə tətbiqinin stimullaşdırılması üçün tədbirlər kompleksinin işlənib hazırlanması məhsulun keyfiyyəti və rəqabətqabiliyyətinin dünya standartlarına çatdırılmasında həlledici amildir.

Xarici investisiyanın həcmi artdıqca onun ödənmə müddəti də artır. Bu baxımdan respublika sənayesinin inkişafına əhəmiyyətli təsir göstərən iri müştərək biznes fəaliyyətinin yaradılması stimullaşdırılmalıdır. Ümumiyyətlə, sahibkarlığa edilən güzəşt və yardımlar xüsusi olaraq xarici investisiyanın cəlb olunması üçün yox, dövlətin iqtisadi inkişafının stimullaşdırıl-ması siyasətilə əlaqədar olmalıdır. Həm birbaşa xarici investisiyanın cəlb olunmasına, həm də ölkənin sosial-iqtisadi inkişafına daha çox təsir edən siyasət, ayrı-ayrı xüsusi həvəsləndirici tədbirlərin məcmusu yox, iqtisadi artım strategiyasının üzvi elementidir.